

*Asif Rüstəmli*
Filologiya elmləri doktoru, professor
asif_rustemli@yahoo.com

# GÖYƏMLİ GƏRAYLISI

Şifahi xalq ədəbiyyatı, aşıq poeziyası mənsub olduğu millətin mənəviyyat çələngi, təfəkkür hadisəsi, fəlsəfi düşüncəsinin, yaşam tərzinin poetik panoramı və bədii ensiklopediyasıdır. Xalq yaradıcılığından yetərincə barınan, bəhrələnən sənətkarların əsərlərindən boy göstərən səmi-miyyət, saflıq, duruluq, duyğusallıq, axıcılıq, müdriklik, cazibədarlıq kimi poetik keyfiyyətlər bu sənət incilərinin həmişəyaşarlılığına ədəbi təminat verir. Tarixi təcrübə göstərir ki, ömrünü, həyatını xalq yaradıcılığı ilə bağlayanları, folklorumuzu, etnoqrafiyamızı zənginləşdirənləri xalq sevir, xalq yaşadır

İyirmi üç il bundan əvvəl - 1993-cü ilin Novruz bayramı ərəfəsində AMEA Nizami adına Ədəbiyyat İnstitutunun İçəri Şəhərdə yerləşən Folklor Elmi-Mədəni Mərkəzinin (İndiki AMEA-nın Folklor İnstitutu. O vaxt mən həmin mərkəzin direktoru idim. - A.R.) açılışına hazırlaşırdıq. Ölkədə ağır müharibə gedirdi, iqtisadi durum müşkül, maliyyə vəziyyəti çətin idi. Amma xalqımızın dəstəyinə güvənir, ona böyük ümidlər bağlayırdıq. Həmin ərəfədə Azərbaycan Televiziyası məşhur "Ozan" verilişinə bölgələrimizin hər yerindən göndərilmiş eksponatlar toplusunu küll halında Folklor Elmi-Mədəni Mərkəzinə bağışladı. Professor Qəzənfər Paşayev, Azad İbrahimov, Urşan Rəhimov, Eldar İsmayıl və onlarla digərləri folklorumuza, etnoqrafiyamıza aid dəyərli hədiyyələrlə gəlmişdir. Qonaqlardan biri - uca boyu, qara qıvrım saçı, sallaq bığı və nurlu çöhrəsi ilə diqqəti cəlb edən aşıq əlində tutduğu sazı mənə təqdim edərək təbəssümlə dedi:

- Asif müəllim, bu sazı sizə, Folklor Sarayının muzeyi üçün gətirmişəm.

Çox dəyərli hədiyyəni - sazı mənə təqdim edən Qəzənfər Sazbənd idi. Doğrusu bu hədiyyə çox yerinə düşürdü. Çünki, bu gün tanınan, populyar xanım aşıqlardan Telli Borçalı, Aşıq Kəmalə Qubadlı və b. o vaxt çox gənc idilər və Folklor Sarayına gəlib ustad aşıqlardan dərs alırdılar. Saza olan ehtiyacımız hər zaman hiss olunurdu. Qəzənfər Sazbənd elə bil ürəyimizi oxumuşdu...

Həssaslıq, duyğusallıq, istiqanlılıq, zəhmətsevərlik, təvazökarlıq, təmənnasızlıq Qəzənfər Sazbəndin şəxsiyyətini şərtləndirən başlıca insani keyfiyyətlərdir. Onunla daha yaxından tanış olduqca öyrəndim ki, Qəzənfər hələ gənclik illərindən sazbəndlik etməklə yanaşı, məharətlə saz çalır, incə ruhlu şeirlər yazır, hətta yeni, maraqlı aşıq mahnıları bəstələyir və öz əsərlərini yüksək şövqlə, zövqlə ifa edir. Bu yaradıcılıq xüsusiyyətlərinin onda uğurlu alınması güman edirəm ki, təsadüfi deyildir. Çünki Qəzənfər Əli oğlu düz 70 il əvvəl təbiətin əsrarəngiz və heyrətamiz gözəlliyinin aşıb-daşdığı, coşub-çağladığı bir zamanda, el-oba deyimi ilə desək taxıl biçini vaxtı (iyul ayının 1-də - A.R.) Gədəbəyin ala-yaşıla bürünmüş Göyəmli kəndində dünyaya təşrif gətirib. Gözünü açanda evdə saz, ailədə aşıq sənətinə sevgi görüb. Atası Əli Ədil oğlu ağır zəhmətlə məşğul olsa da, el şənliklərində saz çalıb-oxumağından qalmazdı. Ailə mühiti gənc Qəzənfərin zövqünün, marağının formalaşmasında, yaradıcılıq yönünün müəyyənləşdirilməsində mühüm rol oynayıb. Orta məktəbi bitirdikdən sonra Bakıya gəlib, müxtəlif tikinti idarələrində fəhlə, usta işləyib. Bakı Yerli Sənaye Texnikumunun ağac emalı üzrə texnik-texnoloq ixtisasına yiyələnib, uşaqlıqdan tanıdığı ağacların xasiyyətinə, keyfiyyətinə, dözümünə, saza-səsə uyarlığına bələd olub. Ağac üzərində apardığı araşdırmalar onu sazbəndlik peşəsinə istiqamətləndirib. Şeirlərində tez-tez rast gələnən Sazbənd təxəllüsü könül verdiyi sənəti ilə bağlı fəzilətdir.

Qəzənfər Sazbənd 1992-ci ildən pedaqoji fəaliyyətə başlayır, Bakıdakı 35 saylı Uşaq Musiqi Məktəbində Saz fənnini tədris edib. Bu sahədəki uğurlarına görə sonralar Azərbaycan Respublikası Mədəniyyət naziri Polad Bülbüloğlunun imzası ilə "Fəxri fərman"ına layiq görülür.

Folklor Elmi-Mədəni Mərkəzinə saz hədiyyə etdikdən sonra Qəzənfər Sazbəndlə müxtəlif tədbirlərdə tez-tez görüşür, yaradıcılıq sahəsindəki uğurları məni çox sevindirirdi.

Yaddaşım mənə xəyanət etmirsə (ifadə akademik Teymur Kərimliyə məxsusdur - A.R.) 1996-cı ilin iyun ayının əvvəllərində qəfil xəstəlik məni yaxalamışdı. Şəhər xəstəxanalarından birində həkimlərin ciddi nəzarəti altında müalicə olunurdum. İstirahət günlərinin birində gözlənilmədən Qəzənfər sazı ilə içəri daxil oldu. Qəlbimi gizli bir narahatçılıq bürüdü: - eşidən nə deyər?! Qonşu palatalardan onlarla xəstə aşığın başına yığışdı. Xahiş və təkidlərdən sonra Qəzənfər sazı göynəkdən çıxartdı. Mizrab simlərə toxunan kimi mənə elə gəldi ki, bu saz Sazbəndin düzəltdiklərinin ən ələsidir. Bəlkə də Qəzənfər özünü nəhəng bir səhnədə hiss edirdi... Aşıq mahnıları bir-birini əvəzlədikcə şiddətli ağrıları unutmuşdum. Bu əsl möcüzə idi   Səsin, sözün və sazın vəhdətindən yaranan möcüzə. Xəstələrdə böyük coşqu, ruh yüksəkliyi yaranmışdı. Bunu Qəzənfər də gizlicə duyur, bütün bacarığını, istedadını nümayiş etdirirdi. O alnının tərini silib dayananda gurultulu alqışlarla qarşılandı

Həmin gün Qəzənfər Sazbəndlə onun



yaradıcılığı barədə ətraflı söhbətimiz oldu. Öyrəndim ki, oxuduğu aşıq mahnılarının musiqisi və sözləri də özünə məxsusdur. Əlli yaşına çatmasına, çoxsaylı gəraylıların, qoşmalarının olmasına  baxmayaraq ilk kitabının nəşr edilməməsinin səbəbləri-ni soruşanda çantasından bir qovluq çıxarıb mənə təqdim edərək dedi:

- Asif müəllim, söhbətimizin bu məqama çatacağını öncədən bildiyim üçün yazı-pozularımın içindən seçib gətirmişəm. Baxın, bu yazıların taleyini Sizə tapşırıram. Xoşunuza gəlsə ön söz yazmağınızı təvəqqe edirəm.

Qovluğun çox nazik olduğunu görüb elə müəllifinin yanındaca vərəqləri nəzərdən keçirdim. "İstərəm" adlı bir gəraylısı xoşuma gəldi. Şeirin son bəndində Sazbənd yazırdı:

***Yaranmışıq gəlmək üçün,***
***Bu dünyanı bilmək üçün,***
***Qəzənfərəm, ölmək üçün***
***Dar yaxandan yol istərəm.***

Qəzənfər Sazbəndin "Özgə adda gəzəmmərəm" sərlövhəli ilk kitabına "Simlərdən süzülən səmimiyyət" adlı ön söz yazmaq mənə nəsib oldu. Şairin ilk şeirlər toplusu həcm etibarilə yığcam olsa da, az vaxt içərisində çox populyarlaşdı. Hətta kitab Türkiyədə Atatürk Universiteti Kazım Qarabəkir Təhsil Fakültəsi Türk dili və ədəbiyyatı kafedrası tərəfindən Prof. Dr. Əli Kafkasiyalının redaktəsi və Tahir Özkılıçın müqəddiməsi və şərhi ilə 2000-ci ildə "Xalq ədəbiyyatı" silsiləsindən nəşr edilmişdir. "Özgə adda gəzəmmərəm" kitabının Türkiyə nəşrində mənim ön sözümü zədəsiz, ixtisarsız saxladıqları üçün folklorşünas, Prof. Dr. Əli Kafkasiyalı və Tahir Özkılıç əfəndilərə minnətdarlıq borcumun gec də olsa etiraf etmək fürsətini qaçırmaq məramından uzağam.

İlk kitabının Azərbaycanda və Türkiyədə uğur qazanması Qəzənfər Sazbəndi daha da sevdirdi, tanıtdı və məşhurlaşdırdı. Hərbçi şairə, xalqımızın vətənpərvər övladı Məleykə Səma 2001-ci ildə "Sazbənd Qəzənfərin saz-söz dünyası" adlı bədii-publisistik üslubda yazılmış, maraqlı, irihəcmli bir əsər çap etdirdi. Kitabda Sazbəndin ömür yolu, həyat və yaradıcılığı yaddaqalan lövhələrlə işıqlandırılmış, şairin şeirlərindən seçmələr əsərə daxil edilmişdir.

Qəzənfər Sazbəndin "Yaşa dedi ellər mənə" (2006) kitabına tanınmış şair Müzəffər Şükür Məchul ön söz yazmış, şeirlərdən nümunələrə əsaslanaraq təhlil etmiş, səmimi fikirlər söyləmişdir. Bir neçə kitab müəllifi Qəzənfər Sazbənd Azərbaycan Yazıçılar Birliyinini və Aşıqlar Birliyinin üzvüdür.

Bu gün demək çox çətindir ki, Qəzənfər gənclik illərində əllərini qoşalayıb ovuc-ovuc su içdiyi Dürlü, Novlu, Damcılı, Çərkəz, Təktoz bulaqlardan hansının üstündə daha çox duyğulanıb, hansı çeşmənin başında nərgizin, lalənin, yasəmənin, qərənfilin, qəlyangülünün ətrindən, rayihəsindən, cazibəsindən heyrətlənib ilk misrasını, beytini, bəndini dilə gətirib... Amma bir mətləbi əminliklə vurğulamaq olar ki, onun şeirlərində Göyəmli bulaqlarının təbiiliyi, duruluğu, saflığı, axıcılığı xüsusilə onun gəraylılarında duyulmaqdadır.

Qəzənfər Sazbəndin nəşrə hazırladığı yeni kitabında da Göyəmli gəraylıları kəmiyyət və keyfiyyət baxımından üstünlük təşkil edir. Bəstələdiyi "Sazbənd cəngisi" havasından vətənə həsr etdiyi şeirinin bir misrasını topluya sərlövhə seçən şair "Sən ağrıma, mən ağrıyım..." - deyir. Gah hayqıran, gah da  nalə çəkən şairin ağrılarının kökü dərindədir. Üstündən əsrlər keçsə də bu yaralar qaysaq bağlamır... yaddaşdan-yaddaşa süzüldükcə milli ruhu göynədən vətən yaralarından qan sızır...

***Sən almısan rus yarası,***
***Bir tərəfdən fars yarası.***
***Dərbənd, Təbriz, Qars yarası***
***Sən ağrıma, mən ağrıyım.***

Doğurdan da, belə yaraların ağrısına hansı xalq dözə bilər?!... Qəzənfər Sazbənd vətən ağrılarının ağırlığı altına çiyinlərini verməklə Haqqın dərgahına üz tutur, kömək umur, haray çəkir, fəryad qoparır. Gözlədiklərini görməyəndə "Ağrın - acın mənə Vətən!" - deyərək öz içinə, poetik aləminə çəkilir

Qəzənfər Sazbənd gəraylılarının mehrabı Göyəmlidirsə, qibləsi sözdür.

***Canı sözə qıyan varmı?***
***Doğru sözdən doyan varmı?***
***Sazbənd, sözün sayan varmı?***
***Mənə dərin, sirr olmasa.***

Sözün canındakı mənaya, sirrə varmaq üçün canı sözə qıymaq   Nə qədər sadə, poetik və fəlsəfidir?! Bu dərin düşüncələrin kökü, soyu, alt qatı haradan qaynaqlanır? Tarixin "sıx-sıx duman"lığında şairin könlü kimləri axtarır, hansı düşüncə qatını nişan verir? Qəzənfər Sazbəndin digər gəraylısında bu sualların izinə düşmək mümkündür.

***Könül, çox da gəl atdanma,***
***İndi başqa zamandı ha!...***
***O dağları pünhan dolan,***
***Qoynu sıx-sıx dumandı ha!...***

***Bu Ozanı tərpədərsən!***
***Könül telin ürpədərsən!***
***Nə olmusan dərbədər sən?!***
***Kökün-soyun şamandı ha!...***

Danışıq dilimizin şirinliyini, mərhəmliyini, ifadə təravətini cazibəsində saxlayan misraların məna əsrarəngizliyində şamanizm inancının düşüncə qatında, ruhi fəlsəfəsində soy-kök bağlarına işarələr şübhəsiz ki, ilk növbədə xalqın tarixi qədimiliyini, bənzərsiz mədəni və mənəvi zənginliyi nişan verir.

Qəzənfər Sazbəndin gəraylılarında alliterasiya bulaq zümzüməsini xatırladan musiqililiyi ilə mənanın dərkini və şeirin yaddaşa həkk olunmasını asanlaşdırır.

***Baş var, başdan baş çıxarmaz,***
***Başların da, baş ömrü var.***
***Hər daşa da daş deməzlər,***
***Daşların da daş ömrü var.***

Qəzənfər Sazbəndin gəraylılarının çoxu Göyəmlidə yaranıb. Göyəmli təbiətinin əsrarəngiz təranəsi, ormanlarının bahar qoxulu nəfəsi, bulaqlarının zümrüd zümzüməsi gəlir bu gəraylılardan. Gəraylı sözünün mənşəyindən bəhs edən Salman Mümtaz "Gəraylı elinin yaratdığı mənzuməyə gəraylı deyildiyi"ni bildirirdi. Bu mənada Qəzənfərin özünü də Göyəmli gəraylısına bənzədirəm - şux, mükəmməl, dolğun, yığcam və məzmunlu. Sazbəndin iç dünyasına, ruhuna daha dərindən bələd olmaq üçün onun gəraylıları şairin ən mükəmməl avtoportretidir. Polifonik rəng, səs və söz çalarının zənginliyi, cazibədarlığı, təbiiliyi, aydınlığı və ifadəliliyi ilə bu möhtəşəm portretdən görünən yalnız Qəzənfər Sazbənd deyil, həm də Göyəmli gəraylısıdır.